# UŞAQLARI QORUYAQ!

**Azərbaycan Respublikasının**
**Ailə, Qadın və Uşaq Problemləri üzrə**
**Dövlət Komitəsi**

Azərbaycan, Bakı, AZ 1000,
Üzeyir Hacıbəyov küçəsi – 40
Hökümət Evi, 4-cü alaqapı
Tel: (+99412) 493 79 62
Faks: (+99412) 493 58 72
www.scfwca.gov.az
E-mail: office@scfwca.gov.az

# UŞAQLARIN ALVER QURBANI OLMASINA YOL VERMƏYƏK!

**Uşaqları qoruyun!**

İnsan alveri qurbanları arasında uşaqların sayı getdikcə artır. Bunun qarşını almaq üçün valideynlər mühüm addımlar atmalıdırlar.

**Uşaqlar yad insanları necə təyin etməlidirlər ?**

Uşaqlara qarşı cinayət əsasən, uşağın əvvəlcədən tanıdığı insanlar tərəfindən törədilir.

- Uşaqlar bəzi hallarda insanın doğma və ya yad olduğunu dəqiq təyin edə bilmirlər. Onlar, valideynləri ilə yaxın ünsiyyətdə olan, evlərinə qo-

naq qismində dəvət edilən qonşu və ya tanışları avtomatik olaraq, yaxın adam kimi qəbul edirlər.
Uşaqlara əvvəlcədən kimin yaxın, kimin yad adam olduğunu başa salmaq lazımdır!

- Uşaqlar oğrunu, düşməni adətən natəmiz və kobud insan kimi təsvir edirlər. Uşaqlar elə fikirləşir ki, səliqəli, təmiz geyinən, gülərüz adamlar xeyirxah, yaxşı insanlardır.

Uşaqlara oğruların, pis insanların müxtəlif yaşda, cinsdə, bədən quruluşunda və irqdə ola biləcəklərini başa salın!

## <u>Balaca uşaqlar nəyi bilməlidirlər:</u>

1. Uşaqları xəbərdar edin ki, yad insanlar onlara müraciət etsələr, (məs. itmiş bir heyvanı tapmaq, yaşlı qadına yardım etmək, telefonundan istifadə etmək və s.) onlara inanmasınlar.

2. Uşaqlar telefona cavab verərkən, evdə tək olduqlarını yad insana bildirməməlidirlər. (valideynlərinin işlə məşğul olduğunu və telefona bir qədər sonra cavab verə biləcəklərini deyə bilərlər)

3. Uşaqlar evdə tək olduqları zaman qapını heç kəsə açmamalıdırlar.

4. Uşaqlar valideynlərinin icazəsi olmadan evə qonaq dəvət etməməli və evdən getməməlidirlər.

5. Uşaqlar valideynlərinin icazəsi olmadan hətta, tanıdıqları adamların belə avtomobillərinə minməməlidirlər.

6. Uşaqlar valideynlərinin icazəsi olmadan tanımadıqları insanlardan konfet və ya başqa hədiyyələr almamalıdırlar.

7. Uşaqlar tərk edilmiş binalarda oynamamalı və uzaqlara getməməlidirlər.

8. Uşağı kimsə güc tətbiq edərək, avtomobilə otuzdurmaq istəyərsə, uşaq istədiyi üsulla ətrafdakıların diqqətini mütləq cəlb etməlidir.

9. Uşaq öz ünvanını, ev telefonunu və valideynlərinin telefonunu əzbər bilməlidir.

10. Böyüklərin onlara qarşı tətbiq etdiyi hərəkət onları narahat edərsə, vaxtında “yox“ deməyi bacarmalıdırlar.

11. Uşaqlara başa salmaq lazımdır ki, heç kimin onların bədəninin heç bir yerinə toxunmağa ixtiyarı yoxdur!

12. Böyüklərdən kimsə onlardan hər hansı bir şeyi gizlətməyi xahiş edərsə, mütləq bu haqda valideynlərinə xəbər verməlidirlər.

13. Uşaq hər hansı bir ticarət mərkəzi və ya mağazada itən zaman yaxındakı satıcı və ya administratora yaxınlaşmalıdır!

## Yeniyetmələr nə etməlidirlər:

1. Evdən çıxdıqları zaman valideynlərinə bu haqda mütləq məlumat verməli və istədikləri zaman onlara zəng edib olduqları yerdən götürməklərini xahiş etmək imkanları olmalıdır.

2. Tanımadıqları avtomobillərə minməməlidirlər.

3. İnsan axını az olan parklardan, küçələrdən ehtiyatla keçməlidirlər.

4. Əgər, kiminsə onları izlədiyini hiss edərlərsə, yaxınlıqda olan insanlardan yardım istəməlidirlər.

5. Özünü şübhəli aparan şəxsi müəyyən etməyi bacarmalı, onu təsvir edə bilməli və avtomobili varsa, nömrəsini yadında saxlamalıdırlar.

6. Özlərinə zərər verməmək üçün onlardan pul, telefon, qızıl və s. əşyalar tələb edilərsə, mütləq verməlidirlər.

**Valideynlər nə etməlidirlər**:

1.Valideynlər üzərində uşağın adı olan paltar, oyuncaq və digər əşyalardan istifadə etməməyə çalışmalıdırlar. Çünki oğru uşağın adını oxuya bilər. Uşaqlar isə onların adlarını bilən insanı özlərinə daha yaxın hiss edirlər.

2. Uşaqlarının bütün dostlarını şəxsən tanımalı və onlar barədə geniş məlumatları olmalıdır.

3. İctimai yerlərdə balaca uşaqların hər zaman əllərindən tutmalı və bir

saniyə belə olsa, nəzərdən qaçırmamalıdırlar.

4. Uşağı məktəbə, bağçaya, idmana və s. yerlərə apardıqları zaman qapıya kimi ötürməlidirlər.

5. Uşaqlara bəlaya düşdükləri zaman hara müraciət edib, kimdən yardım istəyəcəklərini başa salmalıdırlar.

6. Valideynlərin yanında uşaqlarınının rəngli şəkli, tibbi və stomatoloji anamnezi olmalıdır.

7. Uşaqlara polis, yanğın söndürən və təcili yardımın nömrələrini öyrətməlidirlər.

8. Uşaqlara uşaq oğurluğu haqqında elə ehtiyatla məlumat verməlidirlər ki, onlar qorxu içində olmadan ehtiyatlı olsunlar .